409:1.QXD 04.02.2018 16:57 Page 1

KÜRD xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

# DİPLOMAT

№ 04 (409) 5 - 11 Fevral, Şûbat sal 2018
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: / Hêjaye: 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2
Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda iştirak edib


Səh. 8
Bərzani Ankaraya qarşı çıxdı - Afrin müzakirəsi


Səh. 11
Amerîka: Pêwîste berî helbijartinan pirsgirêkên Hewlêr û Bexda bên çareser kirin!


Səh. 11
Ta pişkê budceya Herêma Kurdistanî nebe ji sedî 17 beykot berdewam dibe


Səh. 16
Масрур Барзани встретился с архиепископом Курдистана


Səh. 4
LAÇINIM DEYƏN DİLİMİZİN BİRİ DƏ SUSDU!!!


Səh. 4
LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM

## Kürdlər və Kürdüstan
Səh. 6

## ABŞ Suriyada Türkiyə ilə toqquşsa NATO dağılacaq
Səh. 8

## İtirdiyimiz tarixi yurdlar: Dərələyəz mahalı
Səh. 7

## ÖSO, YPJ'li kadına işkenceyi kabul etti; Soruşturma başlatacağız!
Səh. 9

## İraq Ərəbistan sərhədinə ordu yeritdi
zSəh. 7

## Пешмерга выдвинуты на Нобелевскую премию мира
Səh. 13


Səh. 12
Parlamenterê ermenî yê HDPê, Garo Paylan: Ez ditirsim li Efrînê jenosîd biqewime!


Səh. 5
KÜRD ƏDİBLƏRİ HAQQINDA ARAŞDIRMALAR


Səh. 11
Salih Mislim: Ji bo Efrînê ti hevpeymaniya me bi ti hêzê re nebû


Səh. 8
ABŞ Suriyada Türkiyə ilə toqquşsa NATO dağılacaq

# Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransda iştirak edib

Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlət başçısı konfransda giriş nitqi söylədi.

Prezident İlham Əliyevin giriş nitqi

- Bu gün biz Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq. Bu il üçüncü Dövlət Proqramının icrası başa çatır və biz bu il dördüncü proqramın hazırlanması ilə bağlı işlərə başlamalıyıq.

Bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası çox uğurla gedir. Üçüncü proqram da uğurla icra edilir, qarşımızda duran bütün vəzifələr icra edilir və artıqlaması ilə icra edilir.

Ölkəmizin birinci proqramın qəbul edilməsi tarixi hadisə idi. Həyat bunu əyani şəkildə göstərir. 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram demək olar ki, Azərbaycan regionlarında dönüş yaratdı. Azərbaycan regionlarının sürətli inkişafı məhz birinci proqramın icrası ilə bağlı idi.

Mən 2003-cü ildə Prezident seçkiləri ərəfəsində bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, Azərbaycan regionlarının problemləri ilə məşğul olacağam. Söz vermişdim ki, Azərbaycan regionlarında sosial-iqtisadi inkişaf sürətlə gedəcək. Son 14 il ərzindəki reallıqlar bunu göstərir ki, verilən bütün vədlər artıqlaması ilə yerinə yetirildi.

Son 14 il ərzində Azərbaycan böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Azərbaycanın beynəlxalq nüfuzu artdı, ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilir. Sabitliyin mənbəyi isə Azərbaycan xalqının iradəsidir, xalq-iqtidar birliyidir.

Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir.

Ölkəmizdə köklü iqtisadi islahatlar icra edilmişdir. Bölgələrdə infrastruktur layihələri icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan verdi, eyni zamanda, bizim nəhəng transmilli infrastruktur layihələrimiz Avrasiyanın enerji və nəqliyyat xəritəsini dəyişdi.

Ancaq, eyni zamanda, gündəlik fəaliyyətimizdə Azərbaycan xalqının həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində əməli-praktiki addımlar atılmışdır. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir.

Son 14 il ərzində regional inkişaf proqramlarının icrasının nəticələri də göz qabağındadır. Biz əlbəttə ki, 2004-cü ildə, ilk növbədə, infrastruktur layihələrindən başlamalı idik. Çünki bu olmadan hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Elektrik təsərrüfatımıza böyük investisiyalar qoyuldu. Son 14 il ərzində ölkəmizdə 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Bildirməliyəm ki, 2004-cü ilə qədər Azərbaycanda bütün dövrlər ərzində 9 elektrik stansiyası tikilmişdir. Ancaq onların generasiya gücü böyük idi, onların potensialı 3900 meqavatdır. Biz 14 il ərzində generasiya gücümüzün 2500 meqavat artırılmasına nail olduq. Bu il bu rəqəm 2900 meqavata çatacaq.

Beləliklə, əgər biz 2004-cü ildə elektrik enerjisini idxal edirdiksə və buna görə valyuta ödəyirdiksə, hazırda biz nəinki özümüzü tam şəkildə təmin edirik, eyni zamanda, elektrik enerjisini ixrac etməyə başlamışıq. Bu məqsədlə əlbəttə ki, həm ölkə ərazisində, həm də üç qonşu ölkə - Rusiya, İran və Gürcüstan ilə elektrik xətlərimizi birləşdirmişik. Eyni zamanda, Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı üçün yaxşı imkanlar mövcuddur.

Energetika hər bir iqtisadiyyatın bel sütunudur, təməlidir. Ona görə biz, ilk növbədə, bu məsələlərlə məşğul olmağa başlamışıq. Bu gün ölkəmizin uğurlu, sürətli inkişafı bu elektrik stansiyalarının mövcud olması ilə sıx bağlıdır. Biz indi sənaye istehsalımızı, iqtisadi gücümüzü artırırıq. Yeni müəssisələr, yeni yaşayış kompleksləri yaradılır, əhali artır. Biz bunların hamısını nəyin hesabına enerji ilə qidalandıra bilərdik?! Ona görə, ilk növbədə, bu məsələ həll olundu. Növbəti illərdə əminəm ki, biz elektrik enerjimizdən daha səmərəli şəkildə istifadə etməliyik və bərpa olunan enerji növlərinin inkişafı ilə bağlı addımlar atılacaq.

2004-cü ildə Azərbaycanda qazlaşdırmanın səviyyəsi 51 faiz idi. Bölgələrdə demək olar ki, qaz yox idi, şəhərlərdə də yox idi, kəndlərdə ümumiyyətlə yox idi. Hazırda Azərbaycanda qazlaşdırma 93 faizə çatıb. Bütün şəhərlərimiz qazla 100 faiz təmin edilib. Bir çox kəndlərimizdə bu proses davam etdiriləcək və bu il görüləcək işlər haqqında bir qədər sonra danışacağıq.

İçməli su və kanalizasiya problemləri insanları narahat edən çox ciddi problemlər idi. Düzdür, bu sahənin bilavasitə iqtisadi və sənaye inkişafımıza o qədər də böyük təsiri olmasa da, bu, çox ciddi sosial məsələdir. Ona görə biz bu məsələ ilə də ciddi məşğul olmağa başlamışıq.

2004-cü ildə ölkə üzrə fasiləsiz içməli su ilə təminat 26 faiz idi, hazırda bu, 67 faizə çatıb, Bakı şəhərində 81, bölgələrdə isə 43 faizdir. Ona görə bu sahəyə bu il və gələcək illərdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur ki, biz bu məsələni də həll edək. Demək olar ki, bir çox şəhərlərimizdə içməli su və kanalizasiya layihələri uğurla başa çatıb. Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri, - bu da tarixi hadisədir, - inşa edilib. Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu tikilibdir. Bu gün bu qurğudan çıxan sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verir..

Avtomobil yollarının tikintisi infrastruktur layihələri arasında önəmli yer tutan sahədir. Bu, həm iqtisadi, həm sosial sahədir. Rahat, hamar yollar insanlara rahatlıq gətirir. Eyni zamanda, yol olmadan bölgələr inkişaf edə bilməz, nə turizm, nə də sənaye istehsalı inkişaf edə bilər, kənd təsərrüfatının inkişafı üçün də problemlər yaranar. Hazırda kənd yollarının tikintisi geniş vüsət alıb. Biz görürük ki, harada yeni yol çəkilir, o bölgədə canlanma daha da sürətlə gedir, kənd təsərrüfatı istehsalı artır. Nəyə görə? Çünki bazarlara rahat çıxış olur. Beləliklə, yol infrastrukturu, sadəcə olaraq, sosial layihə deyil. Son 14 il ərzində 12 min 300 kilometr yol çəkilmişdir. Bu il bu rəqəm təqribən 15 min kilometrə çatacaq. Son 14 il ərzində 443 körpü tikilmişdir.

Beləliklə, ölkə iqtisadiyyatının, regionların inkişafı üçün bu əsas infrastruktur layihələri icra edildi. Onu da deməliyəm ki, əgər biz 2004-cü ildə qəbul edilmiş birinci proqrama nəzər salsaq görərik ki, görülən bu işlərin böyük hissəsi orada əks olunmamışdır. Çünki biz bu proqrama və ondan sonrakı ikinci və üçüncü proqramlara əlavələr etdik. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində, vətəndaşlarla təmaslar əsnasında yeni təkliflər gəldi. Mən hər il onlarla rayona səfərlər edirəm, keçən il




otuzdan çox rayonda olmuşam. Hər dəfə görülən işlərlə maraqlanıram, nəzarət edirəm, eyni zamanda, yerlərdən təkliflər alıram. Ona görə bu proqramlara bəzi hallarda zərurət yarandıqca əlavələr olunur. Odur ki, proqramların təhlilini apararkən biz mütləq əlavələri də nəzərə almalıyıq.

Əlbəttə ki, bizim məqsədimiz bu proqramları icra etməkdir. Ancaq əsas məqsədimiz Azərbaycanın inkişafını daha da sürətləndirməkdir, dayanıqlı, uzunmüddətli inkişafa nail olmaqdır və biz buna nail ola bilmişik. Bugünkü reallıqlar, bölgələrimizin çiçəklənməsi, bütün şəhərlərimizdə gedən quruculuq, abadlıq işləri göstərir ki, biz düzgün yoldayıq.

On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir. İqtisadiyyat 14 il ərzində 3,2 dəfə artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında rekord göstəricidir. Qeyri-neft iqtisadiyyatımız isə 2,8 dəfə artmışdır. Bu, onu göstərir ki, bizim iqtisadi inkişafımız, sadəcə olaraq, neftin, qazın istehsalı ilə bağlı deyil. Bizim iqtisadi inkişafımız çoxşaxəlidir. Ona görə qeyri-neft sektorunun 2,8 dəfə artması aparılan islahatların nəticəsidir. Sənaye sahəsində 2,6 dəfə artım var, kənd təsərrüfatında 1,7 dəfə. Qeyri-neft ixracımız 4,1 dəfə artmışdır.

2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idi. Bax, biz böyük regional inkişaf proqramına bu rəqəmlə start verdik. O vaxt mən yaxşı bilirdim ki, bu proqram çox böyük vəsait tələb edəcək. Bizim maliyyə imkanlarımız o qədər də geniş deyildi. Cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarımız var idi. Buna baxmayaraq, biz birinci regional inkişaf proqramına böyük vəsait ayırdıq. Yəni, bu, bir daha göstərir ki, Azərbaycan regionlarının inkişafı, bölgələrdə yaşayan vətəndaşların güzəranı, həyat səviyyəsi bizim üçün həmişə prioritet olub.

Bu gün isə bizim valyuta ehtiyatlarımız 42 milyard dollara bərabərdir. On dörd il ərzində biz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq. Həm böyük investisiya layihələrinə, infrastruktur layihələrinə, neft-qaz kəmərlərinin tikintisinə vəsait qoymuşuq. Bunlar çox vəsait aparan layihələrdir. Eyni zamanda, öz valyuta ehtiyatlarımızı 23 dəfə artırmışıq və adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə bu gün Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bizim valyuta ehtiyatlarımız ölkəmizin ümumi daxili məhsuluna bərabərdir. İqtisadçılar yaxşı bilirlər ki, bu göstərici nəyi əks etdirir.

Ona görə bizim böyük valyuta ehtiyatlarımız həm böyük sərvətimizdir, eyni zamanda, bu, bizə iqtisadi müstəqillik verir. İqtisadi müstəqillik isə siyasi müstəqilliyi şərtləndirir. İqtisadi cəhətdən asılı vəziyyətdə olan ölkələr müstəqil siyasət apara bilmirlər, yaxud da ki, aparmaqda çətinlik çəkirlər. Biz isə tam müstəqil siyasət aparırıq, bütün məsələlərlə bağlı bizim öz mövqeyimiz var və bu mövqeyi çəkinmədən ifadə edirik. Biz bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq, ədaləti və qanunun aliliyini təbliğ edirik və müdafiə edirik.

Keçən il valyuta ehtiyatlarımızın artırılması istiqamətində çox ciddi addımlar atılmışdır. Baxmayaraq ki, keçən il büdcəmiz də builki kimi deyildi, bundan az idi, eyni zamanda, neftin qiyməti də hələ aşağı səviyyədə idi, biz düzgün siyasət, maliyyə sahəsində nizam-intizamı gücləndirmək nəticəsində valyuta ehtiyatlarımızı 4,5 milyard dollar artırmışıq. Əminəm ki, bu il valyuta ehtiyatlarımız əhəmiyyətli dərəcədə artacaq.

On dörd il ərzində ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulmuşdur. Bunun yarısı xarici, yarısı isə daxili sərmayədir. Adambaşına düşən sərmayələrin həcminə görə Azərbaycan yenə də dünya miqyasında lider dövlətlər arasındadır. Xarici sərmayənin qoyuluşu əlbəttə ki, hər bir ölkə üçün ən vacib amillərdən biridir. Eyni zamanda, bu, onu göstərir ki, ölkəyə inam var, ölkənin siyasətinə dəstək var, ölkənin gələcəyinə ümidlər çox böyükdür. Çünki gələcəyi müəyyən olunmayan, yaxud da ki, qaranlıq olan ölkələrə heç kim, heç bir sahibkar, heç bir dövlət, heç bir şirkət investisiya qoymaz. Ona görə 231 milyard dollara bərabər sərmayə qoyuluşu bizim uğurlu siyasətimizin nəticəsidir. Onu da deməliyəm ki, müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi son 14 il ərzində qoyulmuşdur. Bu proses davam edir. Keçən il 14,6 milyard dollar sərmayə qoyulub, bu il ən azı ona bərabər həcmdə sərmayə yatırılacaq.

On dörd il ərzində əhalimiz 1,5 milyon nəfər artıb. Bu, çox gözəl göstəricidir. Bu, onu göstərir ki, əhalimiz artır, ölkəmiz güclənir. Əlbəttə ki, bu artımın ümumi iqtisadi inkişafımızla sıx əlaqəsi var. Hesab edirəm ki, biz bu göstəriciyə görə fəxr edə bilərik. Əlbəttə ki, əhali artımı hər bir ölkə üçün önəmli amildir. Eyni zamanda, bu, bizi daha da fəal işləməyə sövq etmədir. Çünki artan əhali, eyni zamanda, bizdən buna adekvat iqtisadi inkişaf tələb edir. Biz 14 il ərzində ölkəmizdə 1,9 milyon iş yeri yaratmışıq ki, onlardan 1,4 milyonu daimi iş yeridir. Ancaq əhali 1,5 milyon nəfər artıb. Bəli, bu vətəndaşlar hələ ki, yeniyetmə və uşaqdırlar, ancaq bir neçə ildən sonra onlar işlə təmin olunmalıdırlar.

Ona görə iş yerlərinin yaradılması Azərbaycanda daimi proses olmalıdır. İndi dünyada texnoloji inkişafın çox sürətlə getdiyini və bunun iş yerlərinin ixtisarına gətirib çıxardığını nəzərə alsaq, biz bu sahəyə çox böyük diqqət verməliyik ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun. Necə ki, görülən işlər nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Biz birinci proqramın icrasına başlayanda yoxsulluğun səviyyəsi 50 faiz idi, indi isə 5,4 faizdir.

Bax, budur, bizim əsas iqtisadi göstəricilərimiz. Eyni zamanda, sosial sahəyə çox böyük diqqət göstərilmişdir. Maaşlar 14 il ərzində beş dəfədən çox, pensiyalar səkkiz dəfədən çox artıb və bir çox önəmli sosial layihələr icra edilib.

Biz sosial infrastrukturla bağlı böyük işlər görmüşük, 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud təmir edilmişdir, 43 Olimpiya İdman Kompleksi inşa olunmuşdur. Bu da böyük vəsait tələb edən layihələrdir. Ancaq bu layihələr sosialyönümlü layihələrdir, ona görə investisiya proqramımızda daim bu layihələr var. Bu ilin investisiya proqramına əsasən də kifayət qədər sosial layihələr icra ediləcəkdir.

Biznesin inkişafı üçün şəraitin yaradılması istiqamətində ciddi addımlar atılmışdır. Sahibkarlara güzəştli şərtlərlə 2 milyard manatdan çox kreditlər verilmişdir. Nəzərə almalıyıq ki, 14 ilin əsas hissəsində manatın məzənnəsi dollara nisbətən daha da yüksək idi. Ona görə bu iki milyard manat ən azı iki milyard dollar deməkdir. Güzəştli şərtlərlə verilən bu kreditlər sahibkarlar tərəfindən yüksək qiymətləndirildi, onlar bu kreditlərdən istifadə edərək yeni müəssisələr, iş yerləri yaratdılar və o vəsaiti qaytararaq yenə də imkan verirlər ki, biz bu vəsaiti digər sahibkarlara güzəştli şərtlərlə verək, necə ki, bu il də bu, nəzərdə tutulur.

Son illər ərzində ictimai xidmətlər sahəsində inqilabi dönüş baş verdi. "ASAN xidmət" mərkəzlərinin yaradılması bu sahədə inqilabi dönüş etdi. Son beş il ərzində bu mərkəzlərdə 20 milyona yaxın müraciət qəbul edilmişdir və "ASAN xidmət" mərkəzlərini bəyənmə əmsalı 100 faizə yaxındır. Rüşvətxorluğa, korrupsiyaya, bürokratiyaya qarşı çox ciddi mübarizə aparılır. Bu mübarizə, o cümlədən sistem xarakterli tədbirlər sahəsində aparılır. Deyə bilərəm ki, institusional tədbirlər ən səmərəli tədbirlərdir. Əlbəttə ki, cəza tədbirləri də tətbiq olunub, olunur, onların da əhəmiyyəti var. Ancaq institusional tədbirlər, rüşvətxorluq, korrupsiya üçün, necə deyərlər, meydançanın daralması istiqamətində atılan addımlar ən səmərəli addımlardır.

Biz bütün bu işlərlə paralel olaraq, ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək üçün böyük addımlar atmışıq. Azərbaycan kosmik dövlətə çevrilib. Bunu hələ bir neçə il bundan əvvəl təsəvvür etmək belə çətin idi. Hazırda bizim iki peykimiz var - telekommunikasiya və əraziləri müşahidə peykləri. Üçüncü peyk bu il orbitə buraxılacaq. Azərbaycan dünyanın məhdud olan kosmik klubunun üzvüdür. Bu, texnologiyadır, təhsildir, biznesdir və inkişafdır...

Mən avtomobil yolları haqqında danışdım.

Azərbaycanda böyük gəmiqayırma zavodu inşa edildi. Bu gün biz bütün növ gəmiləri istehsal edə bilərik. Artıq gəmiqayırma zavodu önəmli, böyük sifarişlər icra edir. Ələt Dəniz Ticarət Limanı bu il istifadəyə verilməlidir. Bu, Xəzər hövzəsində ən böyük beynəlxalq dəniz ticarət limanıdır. Bu liman olmadan biz nəqliyyat dəhlizinə, nəqliyyat mərkəzinə çevrilə bilməzdik. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi hadisədir. Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan dövləti və xalqı qarşısında tarixi xidmətdir. Bu dəmir yolu, - bu barədə çox danışılıb, ictimaiyyət də əhəmiyyətini bilir, - həqiqətən bölgədə, Avrasiyada nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində bəlkə də son illərdə ən önəmli layihədir. Bunun bizim üçün də çox böyük əhəmiyyəti var. Artıq biriki aydır ki, Asiyadan, Avropadan müxtəlif istiqamətlərə gedən yüklər gəlib Azərbaycan ərazisindən keçir.

Biz Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması ilə bağlı öz ərazimizdə olan bütün məsələləri qısa müddət ərzində həll etdik. Beləliklə, beynəlxalq əməkdaşlığa gözəl şərait yaratmışıq. Dəmir yolunun yenidən qurulması istiqamətində işlər görülüb, görüləcək və biz bu barədə danışacağıq....

Ona görə bütün bu layihələr xalq qarşısında tarixi xidmətlərdir. Biz fəxr edirik ki, bunları icra etmişik. Bu layihələr, eyni zamanda, uzunmüddətli inkişafımıza şərait yaradır. Biz indi 42 milyard dollar valyuta ehtiyatlarımıza malikik. Bunları nəyin hesabına qazanmışıq? Enerji resurslarının ixracı nəticəsində. Bakı-Tbilisi-Ceyhan tikilməsəydi, bu da olmayacaqdı.

Ona görə bu 14 il ərzində görülmüş işlərin hamısını bir çıxışda sadalamaq mümkün deyil. Bəlkə də günlər lazımdır ki, biz bütün işləri qeyd edək. Sadəcə olaraq, mən bu gün əsas məqamları ictimaiyyətin diqqətinə çatdırdım. Görülən bütün işlər və əldə edilmiş nəticələr deməyə əsas verir ki, Azərbaycan bu gün uğurla, sürətlə inkişaf edən ölkədir. Ancaq biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim qabağa baxmalıyıq və növbəti illərdə görüləcək işlərlə bağlı fəaliyyətimizi düzgün qurmalıyıq.

409:1.QXD 04.02.2018 16:57 Page 3



# Daşkəsəndə Gənclər günü qeyd olunmusdur

2 fevral 2018-ci il tarixdə Daşkəsən şəhər Mədəniyyət mərkəzində Azərbaycan Gəncləri gününün 21-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir.

Tədbirdə rayonun bütün idarə, müəssisə və təşkilatlarda çalışan fəal gənclər, eyni zamanda məktəblilər də iştirak etmişlər.

Rayon Gənclər və İdman idarəsi rəisi Samir Həsənov rayon Gənclər və İdman idarəsinin kollektivi adından 2 fevral Azərbaycan gəncləri gününün 21-ci ildönümü münasibəti ilə toplantı iştirakçılarını səmimi qəlbdən təbrik etmişdir.

Daha sonra 2017-ci ildə idarə tərəfindən görülən işlər barədə hesabat xarakterli məruzə ilə çıxış edərək bildirmişdir ki, XX əsrdə Azərbaycan xalqının tərəqqisi və sivil dünyaya qovuşması üçün müstəsna tarixi xidmətlər göstərmiş dünya şöhrətli siyasətçi və dövlət xadimi Ümummilli liderimiz Heydər Əliyevin xalqa arxalanan, ondan güc alan fəaliyyətində gəncliyə münasibəti həmişə xüsusi seçilmişdir. Bu böyük insan respublikamızın inkişafını heç vaxt gənclərsiz təsəvvür etməmiş, gəncliyin parlaq zəkasını, qaynar və tükənməz enerjisini vətənimizin hərtərəfli yüksəlişinə səfərbər etmişdir.



Bu gün Azərbaycan Respublikası möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dünyanın ən inkişaf etmiş ölkələri sırasındadır.

Respublikamızın hər yerində Azərbaycan respublikasının prezidenti cənab İlham Əliyev tərəfindən yerli və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilir. Respublikanın hər bir şəhər və rayonunda yüksək səviyyədə quruculuq və abadlıq işləri aparılır. Hörmətli başçımız cənab Əhəd Abıyevin rəhbərliyi ilə qısa müddət ərzində rayonda iri miqyaslı quruculuq, abadlıq işləri görülmüş və hazırda da davam etdirilir. Rayon ərazisində inşa olunmuş orta ümumtəhsil məktəbləri, əsaslı təmir olunan uşaq bağçaları, şəhər küçələrinin asvaltlaşması, kənd yollarının asvatlaşması, rayonun su təsərrüfatının yenidən qurulması, dam örtüklərinin dəyişdirilməsi, şəhərdə aparılan abadlıq, quruculuq işləri buna əyani misaldır.

Samir Həsənov xüsusi ilə qeyd etmişdir ki, 17 oktyabr 2014-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Respublikanın birinci xanımı Mehriban Əliyeva ilə birlikdə rayonumuza tarixi səfər etmiş, Daşkəsən Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının, müasir avtovağzal binasının, Daşkəsən rayon Gənclərinin Təlim və İstirahət Mərkəzinin açılışında iştirak etmişlər. Təlim və İstirahət Mərkəzinində gənclər üçün hər cür şərait yaradılmışdır.

Sözün əsl mənasında ulu öndər Heydər Əliyev ideyalarına, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə hər bir daşkəsənli gənc öz qəlbində böyük hörmət və məhəbbət gəzdirir.

Rayon Gənclər və İdman idarəsi rəisi Samir Həsənov çıxışının sonunda gənclərə göstərilən diqqət və qayğıya görə möhtərəm prezidentimiz cənab İlham Əliyevə və Daşkəsən rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevə rayon gəncləri adından öz minnətdarlığını bildirmiş, rayon rəhbərliyini əmin etmişdir ki, Gənclər və İdman idarəsi gənclərlə iş və idman sahələrində qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi istiqamətində fəaliyyətini həmişə olduğu kimi bundan sonra da məsuliyyətlə yerinə yetirəcəkdir.

Tədbirdə sonra Daşkəsən Rayon İcra Hakimiyyətinin məsul işçisi Elmar Əliyev çıxış etmiş, gənclərə rayon İcra Hakimiyyətinin Başçısı cənab Əhəd Abıyevin təbrikini çatdırmışdır.

Rayonda həyata keçirilən bir çox mədəni kütləvi tədbirlərdə gənclərin bəzən zəif aktivliyinin müşahidə olunmasını təəssüflə qeyd edən Elmar Əliyev, intellektual səviyyəli, potensial yaradıcılıq imkanları olan gənclərin aşkarlanmasında müəllimlərin rolunu xüsusi vurğulamışdır. Onların qarşısında duran konkret vəzifələr toxunmuşdur. Rayon rəhbərliyi tərəfindən daima gənclərə hörmətlə yanaşmanın, onların gələcək fəaliyyətlərinin stimullaşdırılması və rəhbər məsul vəzifələrə irəli çəkilməsinin hər zaman diqqətdə saxlanıldığını demişdir.

Sonra Daşkəsən şəhər 2 saylı tam orta məktəbin 9-cu sinif şagirdi Nigar Məmmədzadə və 1 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Təhminə Səmədova ölkəmizdə və eləcə də rayonumuzda gənclərə göstərilən diqqət və qayğıdan, müasir Azərbaycan gəncliyinin müstəqilliyimizə bəxş etdikləri layiqli töhfələrdən danışmış, gəncliyin qarşısında duran vəzifələrdən geniş söhbət açmışlar.

Məktəblilər Azərbaycan gəncliyinin xoş gələcəyinin 100 illərə hesablanmış Ulu öndər Heydər Əliyevin tarixin sınaqlarından uğurla keçən daxili və xarici siyasəti ilə bilavasitə bağlı olduğunu söyləmişlər.

Tədbirin sonunda rayonun ictimai həyatında, müxtəlif yarışlarda, mədəni-kütləvi tədbirlərdə fərqlənən gənclərə Rayon Gənclər və İdman İdarəsi adından qiymətli hədiyyələr verilmişdir.

# Gəncədə Gənclər Günü təntənə ilə qeyd olunub

Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi, şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Nizami yurdunda "2 fevral – Gənclər Günü" möhtəşəm şəkildə qeyd edilib. Tədbirdə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, ziyalılar, təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində çalışan fəal gənclər və tələbələr iştirak ediblər. Tədbirdən öncə gənclər təşkilatlarının fəaliyyətini əks etdirən sərgiyə baxış keçirilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himninə həsr olunmuş və Gəncə şəhərinin ictimaiyyət nümayəndələrinin, fəal gənclərinin iştirakı ilə çəkilən videoçarxa tamaşa edilib. Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin, həmçinin gənclər təşkilatlarının 2017-ci ildə gənclər sahəsində gördüyü işləri əks etdirən




videoçarx da izlənilib.

Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev gəncləri bayram günü münasibəti ilə təbrik edib. Onlara xoş arzularını çatdırıb. Azərbaycan gəncliyindən və Gəncə şəhərində gənclər üçün yaradılan imkanlardan söz açan Elmar Vəliyev Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Prezidenti İlham Əliyevin gənclərin inkişafı və onların vətənpərvərlik ruhunda formalaşması istiqamətində həyata keçirilən mühüm tədbirlərdən, dövlət gənclər siyasətinin uğurlu bəhrələrindən, Gəncə gənclərinin qazandığı nailiyyətlərdən danışıb. Tədbirdə çıxış edən Gəncə şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşviq Cəfərov vurğulayıb ki, 2 fevral "Gənclər Günü" 1997-ci ildə prezident Heydər Əliyevin Sərəncamı ilə təsdiq olunub. Bu günün təntənə ilə qeyd edilməsi Heydər Əliyevin gəncliyə göstərdiyi diqqət və qayğının nümunəsidir. İdarə rəisi Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasətinin Azərbaycan gəncliyinin inkişafına təkan verdiyini vurğulayıb. Müşviq Cəfərov bildirib ki, ümumilikdə şəhərdə gənclərin sayı 93.808 nəfərdir. Bu isə şəhər əhalisinin 31%-ni təşkil edir.

Tədbirdə Gəncə ASAN xidmət Mərkəzinin Vətəndaşların qəbulu işinin təşkili sektorunun işçisi Vaqif Əjdərli gənclərin fəaliyyətini yüksək qiymətləndirərək onlara bu yolda uğurlar arzu edib. AMEA-nın Gəncə Bölməsinin elmi işçisi Elnur Həsənov Nizami yurdunda elm sahəsimdə gənclərin əldə etdikləri nailiyyətlərdən söz açıb. Gənc alim ölkəmizdə layiqincə həyata keçirilən dövlət gənclər siyasəti və bu siyasətin uğurlu bəhrələrindən danışıb. Daha sonra tədbirdə açıq mikrafon vasitəsi ilə gənclərin fikirləri dinlənilib, onların müraciət, təklif və şikayətlərinə baxılıb. Xüsusilə şəhid ailələri və Qarabağ əlillərinin övladlarına, ailə vəziyyəti ilə problemi olanlara və valideyinlərini itirmiş 37 tələbəyə təhsil haqlarının ödənməsinə yardım edilib, 10-dan artıq gənc işlə təmin edilib, bundan başqa küçələrinə avtobus xətlərinin uzadılmasını istəyənlərin və bir sıra başqa müraciətlərin həll olunması üçün icra başçısı aidiyyatı qrum rəhbərlərinə yerindəcə tapşırıqlarını verib. Onlara göstərilən diqqət və qayğıya görə gənclər prezident İlham Əliyevə və Birinci Vitse-Prezident Meriban Əliyevaya minnətdarlıqlarını bildiriblər. Çıxışlardan sonra ali və orta ixtisas təhsili müəssisələrində Tələbə-Gənclər Təşkilatlarının fəaliyyətlərinin yüksək səviyyədə icrasına verdiyi dəstəyə görə Azərbaycan Dövlət Aqrara Universitetinin prorektoru Aidə Qasımova, Gəncə Dövlət Universiteti rektorunun baş müşaviri Asif Cavadov, Aərbaycan Texnologiya Universitetinin prorektoru Piri Axundov, Gəncə Tibb Kollecinin director müavini Kərimxan Qurbanov, Gəncə Dövlət Regional Kollecinin director müavini Elşad Abbasov, Gəncə Musiqi Kollecinin director müavini Qəhrəman Abbasov "Təşəkkürnamə" ilə təltif olunub.

# 2 fevral-Gənclər Gününə həsr olunmuş tədbir keçirildi

Tərtər rayonunda 2 fevral-Gənclər Gününə həsr olunmuş umumrayon tədbiri keçirilib. Tədbir iştirakçıları əvvəlcə Mərkəzi Meydanda Ulu Öndərin abidəsinin önünə gül-çiçək dəstələri qoyaraq, onun əziz xatirəsini yad ediblər. Sonra məktəblilərin əl işlərindən ibarət sərgiyə baxılıb. Tədbirin davamı rayon Mədəniyyət Mərkəzində olub.

Öncə torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Toplantını giriş sözü ilə rayon Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov açaraq gəncləri bayram münasibəti ilə təbrik edib. Qeyd edib ki, bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait, imkan böyük diqqətin nəticəsidir. Müasir Azərbaycan gənclər siyasəti Ümumilli liderin adı ilə bağlıdır. Gənclərə etibar edən Ulu Öndər onlarla ünsiyyətin tərəfdarı idi və mütamadi görüşlər keçirməklə, onların düşüncəsini, fikirlərini və təkliflərini öyrənir, müvafiq addımlar atırdı. Elə gənclərlə bu cür ünsiyyətin qurulması üçün ilk dəfə Ümummilli Lider Heydər Əliyev 1995-ci ildə gənclərin forumunun keçirilməsi haqqında təklif irəli sürdü və bundan sonra 1996-cı ildən başlayaraq forumlar təşkil edildi.

Məhz I Gənclər Forumundan sonra bu sahədə atılan addımların sayı dəfələrlə artdı və 1997-ci ildə imzalanan Sərəncamla fevralın 2-si Azərbaycan Gənclər Günü elan edildi.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Emin Pənahov bildirdi ki, Tərtər rayonunun gəncləri dövlət başçısının Respublikanın gənclərinə göstərdiyi diqqət və qayğısına öz əməli işləri ilə cavab verirlər. 2017-ci il ərzində rayon Gənclər və İdman İdarəsi tərəfindən gənclər sahəsi üzrə 52, idman sahəsi üzrə 48 tədbir hazırlanıb həyata keçirilmişdir. Rayonumuzun gəncləri Gənclər və İdman Nazirliyinin dəvəti əsasında gənclər sahəsi üzrə 13, idman sahəsi üzrə 16 tədbirdə iştirak etmişlər.

"Şahinlər" hərbi idman oyunun rayon mərhələsi keçirilmiş, Sarov kənd komandası I yerə layiq görülərək Kürdəmir rayonunda keçirilən zona birinciliyinə vəsiqə qazanmışdır.

Bundan əlavə rayon ərazisində yerləşən "N"saylı hərbi hissədə "Şahin" hərbi idman oyunun zona mərhələsi keçirilmişdir.

Rayonumuzun idmançıları respublika yarışlarına və eyni zamanda beynəlxalq yarışlara da




qatılmışlar. Gənc idimançılardan bos idman növü üzrə Bolqarıstanda keçirilən Avropa Çempionatında Tərtər boksçuları Cəbizadə Elşən İlyas oğlu 57 kq və Allahverdiyev Murad İlham oğlu 75 kq çəki dərəcəsində yığma komandanın tərkibində yarışa qatılmışlar. Allahverdiyev Murad İlham oğlu Moldova, Çexiya və erməni idimançılarına qalib gələrək finala qədər yüksəlib və bürünc medal qazanmışdır. Rayonumuzun digər idimançıları da zona və respublika yarışlarında yüksək nailiyyətlər əldə etmişlər.

Çıxışının sonunda E.Pənahov bir daha gəncləri bayram münasibəti ilə təbrik edərək, bildirdi ki, bu gün hərtərəfli dövlət qayğısı ilə əhatələnmiş Azərbaycan gəncliyi Heydər Əliyev ideyalarına sadiqdir və biz gənclər bundan sonra da dövlətimizin parlaq gələcəyi naminə, Vətənimizin inkişafı üçün böyük səylə çalışacaq, anti-Azərbaycançı şəbəkələrin dəstəyi ilə ölkədə sabitliyi pozmağa cəhd göstərən radikalların çağırışlarını qətiyyətə rədd edərək, arxalandığımız Möhtərəm cənab Prezident İlham Əliyevin göstərdiyi etimadı layiqincə doğruldacağıq.

Sonra gənclər adından Qaraağacı kənd tam orta məktəbin tarix müəllimi Rəşad Qarayev, Ağdərə şəhər körpələr evi-uşaq bağçasının müdiri Nigar Məmmədova, polis şöbəsinin ictimai təhlükəsizliyi bölməsinin polis sahə rəisi Bəxtiyar Əliyev, Kovdadıq kənd kitabxanasının müdiri Nigar Əlizadə, mərkəzi rayon xəstəxanasının tibb bacısı Çinarə Əlibəyli çıxış edərək öz ürək sözlərini bildirdilər.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov əvvəlcə bütün Azərbaycan gənclərini bayram günü münasibətilə təbrik edərək, onlara gündən-günə daha da inkişaf edən ölkəmizdə xoşbəxt və firavan gənclik, sağlamlıq və uğurlu gələcək arzuladı.

Gənclər Gününün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda ümummilli lider Heydər Əliyevin imzaladığı Sərəncama əsasən hər il təntənə ilə qeyd olunduğunu vurğulayan rayon rəhbəri ölkəmizdə gənclərə göstərilən dövlət qayğısından da danışdı.

Bildirdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etmələrində mühüm rol oynayıb.

Rayonda həyata keçirilən gənclər siyasəti və gənclərin sosial vəziyyəti məsələsinə də toxunan icra başçısı bildirdi ki, bu gün rayonun və ölkənin ictimai-siyasi həyatında rayon gənclərinin göstərdiyi fəallıq onların hazırkı səviyyəsinin kifayət qədər yüksək olduğunu söyləməyə əsas verir. Toplantıda rayonun ictimai-siyasi həyatında fəallıq göstərən gənclərin bir qrupuna rayon icra hakimiyyəti, YAP rayon təşkilatı və Gənclər və İdman İdarəsi tərəfindən fəxri fərmanlar və qiymətli hədiyyələr verildi. Tədbir konsert proqramı ilə davam etdirildi.

409:1.QXD 04.02.2018 16:57 Page 4





## LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM

Bəli, bu mısralar Məhəbbət Kazımovun heyat fəlsəfəsidir hansı ki, bu fəlsəfəni və bu fəlsəfi məktəbi bütün laçınlılar deyil, Azərbaycan vətəndaşları, hətta dogma Laçından didərgin düşərək, Azərbaycanımızın başqa bölgələrində dünyaya göz açmış və Laçını yuxusunda görə bilməyən ovladları, Məhəbbət Kazımovun "LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə heç bir müəllimin, heç bir alimin öyrədə bilməyəcəyi bir sevgini, Vətən sevgisini elə ustalıqla, məlahətli səsi il həznlə, qüssə ilə, kədərlə kükrəyərək anlatmışdır ki, Məhəbbəti dinləyən, o dərsə qulaq asan bütün auditoriyaya Vətən sevgisini elə aşılamışdır ki, Vətən sevgisi anlamını heç vaxt unutmadan Laçını elə tanımışlar, elə sevmişlər ki, bəlkə də atalarının, babalarının Laçında keçirtdikləri, gördükləri, eşitdikləri qəhrəman kürd xalqının qəhrəman oğulları Qaçaq Nəbidən,Sultan Bəydən, Xosrov Bəydən, babalarının at oynatdıqları oylaqlardan, laçının sıldırım qayalarindan, ayaq dəyməz, əl çatmaz qarlı dağlarından danışsalar da Məhəbbət Kazımovun " LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə onlara təsir edə bilməzdilər. Məhəbbət Kazimov LAÇINIM, LAÇINIM, LAÇINIM deyə deyə, Laçın həsrəti ilə nalə çəkə-çəkə, inildəyən əvəzsiz səsə malik olan, xalqın sevimlisi, gözəl müğənni Məhəbbət Kazımov Vətən-Laçın həsrəti ilə sevərlərinin ürəyini ölümü ilə közərdərək dünyasını dəyişdi. Məhəbbət Laçın həsrəti ilə dünyasını dəyişdi, Laçın Məhəbbətsiz qaldı. Bəli, Məhəbbəti sevənlər, Məhəbbət Kazımovun "LAÇINIM, LAÇINIM, VƏTƏNİM MƏNİM" fəlsəfi mahnısı ilə, məktəbi ilə qidalananlar, dərs alanlar onun dəfnində iştirak etdilər. O, ölümü ilə də xalqı birləşdirdi. Neçə-neçə küsülülər onun dəfnində barışdılar və Məhəbbətin yoxluğuna birgə fəryad edərək göz yaşı tökdülər. Bəli, Məhəbbət Kazımov öz mahnılarının sədaları altında, onu sevənlərin çiynində son mənzilə yola salındı. Allah qəni qəni rəhmət etsin, yeri cənnətlik olsun. Yaxınlarının başı sağ olsun, Allah səbr versin. Qoy xalqımız Məhəbbətin dəfn mərasimindəki kimi, umu-küsünü atıb hər zaman birgə olsunlar.

***Tahir Süleyman***

# LAÇINIM DEYƏN DİLİMİZİN BİRİ DƏ SUSDU!!!

## *Dəyərli müğənnimizin ölümündən 4 il ötdü*

Torpaq, yurd oğulları ilə boy atır böyüyür, elə oğulları ilə də birlikdə kiçilir, əzilir, asılır, əsr düşür, güllələnir.

Laçının, Kəlbəcərin-ümumilikdə Qarabağın işğalından sonra onlarla oğul və qızlarımız elə bu torpaqlara dönüşsüzlüyün qurbanı oldu, əsri oldu, şəhidi oldu. İllərin üstünə il gəldikcə o torpaqlarda şaxələnən, qol-budaq atan, ədəbiyyat, musiqi ağacımız qol-qol, budaq-budaq kəsildi. Şamil Əsgəriylə, Ağa Laçınlısı ilə, Məhəbbəti ilə daha adını çəkmədiyim neçə sənətkarın ölmü ilə qol-budaq edildi zavallı yurdumun yurdsuz, didərgin, kimsəsiz övladları.



Hər bir itkisiylə bir boy kiçilən Laçınımız, Qubadlımız, Zəngilanımız, Kəlbəcərimiz və neçə-neçə rayonlarımız Məhəbbətin ölmü ilə yenə bir boy kiçildi, yenə musiqimizin bir şax qolu kəsildi. Sarı Aşığı, Hüseyin Kürdoğlusu, Ağa Laçınlısı ilə dədələşən, zirvələşən "Laçınım" elə bu duahaların narahat ruhu ilə beli bükülmüşdü. Bu gün isə Məhəbbət itkisi ilə Laçının beli bir az da büküldü. Gəncliyi o yurdlara bağlayan bir mənəvi körpü də od tutub yandı. Laçına, Qarabağa səsləyən nəğmə dilimizin, musiqi dilimizin biri də susdu.

Onunla ilk və son görüşümü heç vaxt unuda bilmirəm. Onu ilk dəfə acı və həsrət dolu "Laçınım"ı ilə tanıdım. O zaman universitetdə oxuyurdum, dəlidolu, bir qədər də ərköyün halım vardı. Bir toy məclisində zalın qulaq batırıcı səsindən qaçaraq foyedə oturub dostlarımla mübahisə edirdim. Birdən qeyri-ixtiyari olaraq hamımız qalxıb zala keçdik. Bizi ora çəkən ruhi bir gerçəklik idimi, ya elə yurd yanğısı, vətən həsrəti idimi bilmədim...

Qapının ağzında heykəl kimi dayanıb Məhəbbətin içdən gələn yanğıyla oxuduğu "Laçınım" nəğməsini dinləyirdim. Musiqi bitdi, ama mən, hələ də acı və həsrət dolu, yanğılı sehrın əsarətində idim. Doluxmuş, kövrək bir halda yaxınlaşıb, sanki günah etmiş kimi əl uzatdım. Çox qısa bir dialoqumuz oldu. Bu mənim onunla ilk və son görüşüm idi. Bir daha görüşə bilmədik. Ancaq bu görüşdən sonra, o qısa görüşün şirinliyini və o zamanlar gəncliyimin yenilməz bir ruhu olsa belə, nə qədər aciz olduğumu anladığım məqamı unuda bilmədim.

Məhəbbət təkcə musiqimizin itkisi olmadı. Məhəbbət, Laçının qış yataqlarında qazma daxmada yaşayan və onun "Laçınımı" ilə təsəlli alan bir qocanın itkisidir. Məhəbbət, uçuq-sökük qaçqın məktəbində yazısını dizinin üstündə yazan bir Laçınlı məktəblinin itkisidi. Məhəbbət, hər şeylə təmin olunmuş, yalnız "Laçınım" la o yurdu yuvanı xatırlayan bir zəngin zavvalının itkisidi. Bir sözlə Məhəbbət musiqimizin deyil, təsəllimizin, tarixi yadaşımızın, yurdyuvamızın, doğma Laçınının, Çormanın, Qarakeşişin, Əriklinin, Ağbulağın, Mişninin, Minkəndin, Kamalının, Çıraqlının, daha adını çəkmədiyim neçə-neçə Laçın kəndlərinin hər bir ailəsinin, hər bir "vətən" deyən dilin itkisidi, ağrısıdır. Məhəbət, o yerlərdən gətirdiyimiz, mərdliyin, cəsarətin, insanpərvərliyin itkisidir.

"Elnən gələn qara günə təsəlli tez tapılar "- deyib bizim atalar. Amma bu itki bir elin-obanın, bir ölkənin itkisi ilə yanaşı fərdlərin qəbul etdiyi, öz baxış bucağına sığdırdığı və öz "mən" gözləri ilə görüb dəyərləndirdiyi, qəbul etdiyi şəxsi dərdi, şəxsi itkisidi. Bir doğmasının, əmisinin, dayısının qardaşının itkisidi.



Hərdən düşünürəm, bəlkə də onu Məhəbət edən, musiqisi ilə yanaşı o böyük mənəvi dünyası, yüzlərlə müğənisi olan ekranlarımızda barmaqla sayılan Kişilərdən biri olmasıydı. Heç kimə sir deyil ki, onda sənətindən də yüksəkdə dayanan bir kişi ləyaqəti, cəsarəti vardı.

Ömrünü Azərbaycan musiqisinə



həsr edən Məhəbbətə xalq məhəbbəti tükənmədi və bu gündən sonrada tükənməyəcək. Minlərin könüllü olaraq gəldiyi dəfn mərasimində ona olan tükənməz sevginin bir göstəricisi idi. Bu yazını yazanda onun televizyalarımızın birində sonuncu dəfə oxuduğu "Mirzə Hüseyin Seygahın" dinləyirdim. Səsindəki hüzün, ağrı mənə o qədər sirayət etdi ki xeyli lal dayanıb özümü inandırmağa çalışdım ki, bəli o daha aramızda yoxdu.

Bəli, o bir daha yuxularda gördüyü Laçına gedə bilməyəcək. Amma mən əminəm ki o cismən o torpaqlara dönməsədə ruhu indi həsrətiylə alışdığı



Laçının qan çilənən səmasında Sarı Aşıq, Ağa Laçınlı, Hüseyin Kürdoğlu kimi sənətkarların, şairlərin, Soltan Bəyin, Xosrov Bəyin, Kamil Nəsibov kimi qəhrəmanların ruhuyla bir məqamdadır...

Ruhumuz o yerlərdə görüşənədək, ey xalqın Məhəbbəti!!!

***Nofəl Ədalət***

409:1.QXD 04.02.2018 16:57 Page 5



# KÜRD ƏDİBLƏRİ HAQQINDA ARAŞDIRMALAR

## Əbdurrəhman Həjarın yaradıcılığına qısa bir baxış

Dünya ədəbiyyatında çox az yaradıcı şəxsiyyət tapılar ki, öz milli psixologiyasını, xalqının yaşam tərzini əsərlərində əks etdirməsin. Böyük mütəfəkkirlər daim ümumbəşəri ideyalarla yanaşı xalqının sivil, demokratik və azad yaşamasını da diqqət mərkəzində saxlamış və bu istiqamətdədə mübarizələrini aparmışlar.

Bu qəbil mütəfəkkirlərdən biri 20-ci yüzildə şərq ədəbiyyatına meteor kimi daxil olan, milli və azad fikirlərinə görə daim təqib olunan, ömrünü sürgünlərdə yaşayan böyük kürd şairi Əbdərrəhman Şərəfkəndi Həjardır.

Həjar dünyavi baxışı olan, milli və dünyavi fikirlərin məğzinə dayanan, ondan qaynaqlanan, hər iki baxışı özündə əks etdirən bir sənətkardır. Onun əsərləri nə qədər millidirsə, bir o qədər də dünyavidir və ya nə qədər dünyavidirsə, bir o qədər də millidir.

Həjar ömrünü sürgünlərdə, həbslərdə keçirsə də yaradıcılıq istiqamətini dəyişməmiş, daha da cəsarətlə əsərlərini qələmə almış və acı gerçəklikləri söyləmiş, arzularını dilə gətirmişdir. Şairin 1957-ci ildə Suriyada mühacirətdə qələmə aldığı "Mən və bülbül" poemasında söylədiyi aşağıdakı fikirlər onun nə qədər mübariz bir şəxsiyyət olduğunu ortaya qoyur:

***Tikanlı tikəyəm, məni yeyənin***
***Gözündən çıxaram açıq-aşkara.***
***Qanıma susayıb qan eyləyənin,***
***Bir gün taleyini eylərəm qara.***
**və yaxud**
***Tülküyə döndərdim pələngi,şiri,***
***İndi tülkülərmi yeyəcək məni?***

Artıq bu poemanı oxuyanda şairin hansı mubarizə meydanında olduğu göz önündə sərgilənir.

Vətən hər bir sənətkarın dilində müqəddəs bir məkandır. Hər bir sənətkar onu vəsf etməklə, söz gülüstanının min rəg çalarından naxış vurub bəzəməklə vətən sevgisini dilə gətirir. Hajarda "Vətənim Kürdüstan" deyərək söləyir:

***Cahan olsa bir gözəllik ağacı,***
***Hər diyarın gövdə budaq sanaram.***
***Bu ağacın başındakı gül tacı***
***Sənsən, - deyib eşqin ilə yanaram.***

Heç bir rəsmi məktəbdə təhsil almayan, Rza şahın hakimyyəti illərində İranda qeyri dildə şeir yazmaq qadağan olunduğu bir vaxtda doğma Kürd dilində möhtəşəm əsərlər yaradan Hajar, həmçinin maarifçi idealları ilə də seçilir. Xatırladım ki, Həjar Ərəb və Fars dillərində mükəmməl bilsə də əsasən Kürd dilində yazıb yaratmışdır.

Həjar elmin, siyasi mübarizənin önəmli olduğunu göstərməklə yanaşı, kortəbii inqlabın deyil, savadlı idarəçiliyin önəmini açıq şəkildə göstərirdi. Müəllif "Laylay" adlı mənzuməsində azad yaşamanın yolunu bu cür dəyərləndirir və təbliğ edir:

***İstəmirsən əgər yadlara olasan qul,***
***Azadlığın yolunu sənə göstərim, oğul.***
***Günün qara keçsə də, əzizim, get məktəbə.***
***Təhsilsiz bəşər çətin yetər mətləbə.***

Təhsilsiz insanın bəlalarını öncədən görən, yalnız atası Hacı Molla Məhəmməddən dini təhsil alan Hajar böyük bir pedoqoq, əvəzsiz müəllim olduğu da ortadadır.

Həjar kimi şəxsiyyətlər dünyaya az-az gəlir ki, onları da zaman doğru anlaya bilmir. Lakin onlar nə qədər əzab içində yaşasalarda öz haqq yollarından dönmürlər.

Milli adət-ənənələri əks etdirən şeirləri, poema və pyesləri bir bədii əsər olmaqla yanaşı fundamental bir tədqiqat əsəridir. Kürd xalqının milli etnoqrafiyası-adət-ənənələri, yaşam tərzləri, mərasimləri bu əsərlərdə orijinal bir şəkildə



sərgilənir.

Şairin bu qəbil əsərlərini humanitar elmlərin müxtəlif sahələrinə aid etmək olar. Burada, tarix, ədəbiyyat, incəsənət-musiqi və.s. sahələrin bədii ifadəsi içində, elmi tədqiqini də görürük. Müəllif şərq və qərb ictimai fikirlərinin müsbət dəyərlərindən də yan keçmir, yaradıcılığında onları da bədii bir dildə ustalıqla əks etdirir. Həjar söz boyası ilə rəsm cızan unikal şəxsiyyətdir. Şərq ədəbiyyatına nəzər yetirsək yallı rəqsini tərənnüm etdən və onun incəliyini sərgiləyən onlarla sənətkar görə bilərik. Lakin, əminliklə deyə bilərəm ki, bu sənətkarların heç biri yallı rəqsini Həjar qədər incəliklə təsvir edə bilməyib. Azərbaycanda mühacir ömrü yaşamış tədqiqatçı alim Rəhim Qazinin təbirincə desək "Yallı heç bir sənətkar tərəfindən Həjar qədər canlı və incəliklə göstərilməyib"

***

İnsanı daima öz ağuşunda saxlayan bir hiss mövcuddur ki, ona hər bir fərd ehtiyac duyur. Bu hissin doğurduğu sevinci də, kədəri də ömrü boyu şirin xatirə kimi qoruyur. Adi insanlardan fərqli olaraq, şairlər bu hissin təzahürünü poeziyaya gətirir və bu sirli-sehirli dünyanın möcüzələrini sözün möcüzəli qanadı ilə aca bilir.

Nəzərə alsaq ki, məhəbbət, sevgi adlandırdığımız hiss cinsi-heyvani hisslərdən doğulmur, onun başlıca mayası təmiz və pak niyyətdən yoğrulub, onda məhəbbət poeziyasının da nurdan və paklıqdan doğulduğunu qəbul etmiş oları̧. Bu baxımdan kürd ədəbiyyatının görkəmli siması olan Həjar poeziyasını insanlıq mayası adlandırmaq olar.

***Gəl yenə çəmənin seyrinə çıxaq,***
***Gözümüz qəlbimiz danışsın ancaq.***
***Bizi görən olar - demə, sevgilim.***
***Dünyada sevilmək sevmək qalacaq.***

Həjarın şeirlərindəki orijinallıq şairin qəlb dünyasını tam açıqlığı ilə əks etdirir. Şair heç nədən çəkinməyərək sevgilisi qarşısında hər şeyini qurban verməyə hazır dayanır:

***Ey bədirlənmiş hilal, baxma***
***yaşın on dörddü,***
***Olaram gözlərinə min dəfə***
***qurban doymaz.***

Şairin lirik şeirlərində bir ağrı, həsrət sezilməkdədir, həsrət günəşi parlamaqdadır. Hər bir şairin qəlbinə doğma olan hicran ağrısı, sanki Həjarın yaradıcılığında daha çox qol-qanad açıb. Rübailərinin böyük əksəriyyətində hicran yanğısı qabarıq şəkildə görünməkdədir.

***Üzündən utanar bağların gülü,***
***Bənövşə dayanır boynu bükülü,***
***Dilim çox arzular dil busasini,***
***Fəqət tükənmir hicran nisgili***
***
***Göz dikdim yollara gözüm göyərdi***
***Kainat elə bil sükuta daldı,***
***Üfüqdə bir ulduz titrədi birdən,***
***Onun da qəlbini min həsrət aldı.***

Həjar sevdiyi qadını ilahiləşdirməsə də, onun qarşısında aciz olduğunu etiraf edir. Şairin bu etirafı acizanəlikdən deyil, o, böyük bir gözəlliyin vəsfini qəlbimizdə canlandırır.

***Dilim dodağının vəsfində aciz...***
**və yaxud**
***Acizəm yanağın vəsfində aciz...***

Şair vəsf etdiyi gözəli sonuncu məqama qədər vəsf edir ki, bundan o yana vəsf etməyin qarşısında acizdir.

Şairin lirik şeirlərindəki bədii bənzətmələrin bir qismi xalq deyimlərindən gəlsə də, bu bənzətmələr Həjar qələmində daha orijinal şəkil alır. Bu da söylənilmiş fikirlərin təkrarı deyil, yeni deyim tərzi kimi ortaya çıxır.

***Duz səpdi yarama, dodağı duzlu,***
***Yaralı buz istər, ürəyi buzlu.***

Beytin hər iki misrasının birinci tərəfində işlənən "duz səpdi yarama", "Yaralı buz istər" məcazi xalq deyimləri; ikinci tərəfdə işlədilən dodağı duzlu", "Ürəyi buzlu" məcazları ilə yeni məzmun qazanır. Bu da şairin təxəyyülündən qopan, yeni məna, məzmun daşıyan kamil misralardır.

Sevgisiz şair sözü, dil açmayan körpəyə bənzər ki, onu nə anlamaq, nə də kimlərəsə anlatmaq olur. Məhəbbət lirikası tanrının insana bəxş etdiyi, insan üçün ilahi nemət olan sevginin dilidir.

Bunun əzabları nə qədər çox olsa şair ilhamına o qədər işıq salar. Bu səbəbdəndir ki, Həjar şeiri yenilməzliyi ilə seçilir.

Uzun illər sürgündə, vətənindən uzaq yaşayan şairin ürək dili ilə qələmə aldığı əsərləri hicran ağrısına, onun əzablarına sinə gərir. "Əqidəni edam etmək olmaz" deyən bu bəşəri sənətkar, ölməz söz ustadı bəşəriyyətin mayası olan sevginin də edamını mümkünsüz sayır.

***Kirpiyin ləşkərin nizamla gəldi,***
***Könül qarətinə ilhamla gəldi,***
***Sevindim yarına qəsd eləyirsən***
***Gözümdən dup-duru bir damla gəldi.***



***Səhifəni hazırladı: Nofəl Ədalət***



## Yunus Rauf Dıldari

Çox erkən dünyasını dəyişən, buna baxmayaraq önəmli əsərləri ilə kürd ədəbiyyatında yeri olan Yunus Rauf 20 fevral 1918-ci ildə Şərqi Kürdüstanın Köysancaq şəhərində dünyaya gəlib. İbtidai təhsilini Ronyada, orta məktəbi Həvlerdə bitirən Yunus Rauf Təhsilini Bağdad unveristetinin hüquq fakültəsində davam etdirmişdir.

Unveristeti bitirdikdən sonra İraqın müxtəlif şəhərlərində ixtisası üzrə çalışan Yunus Rauf bu dövrdə kürd ədəbiyyatı ilə yaxından tanış olur. Hacı Qədiri Koyi, Bekəs, Pirmerd, Kurdi və s. kimi önəmli yazarların yaradıcılığını dərindən mənimsəyən şairin ilk şeiri 1935-ci ildə Dildari təxəllüsü ilə "Ronabi" dərgisində nəşr edilir.

O dövrdə İraqda başlayan etiraz dalğasına qoşulan Yunus Rauf Dildari "Hiva" partiyasının yaradılmasında yaxından iştirak edir. 1940-cı ildə təhsilini davam etdirən Dildari siyasi fəaliyyətini də genişləndirir.

Qazi Məhəmmədin rəhbərliyi ilə 1946-cı ildə mərkəzi Mahabbat olmaqla elan edilən Kürdüstan Demokratik Respubilikasının dövlət himninin müəllifi olması, Dildarini kürd ictimai və siyasi fikirində, eləcə də ümumdünya kürdləri arasında daha sevilən edirdi.

Bu himn hələ də kürdlər arasında ulusal marş olaraq qəbul edilir və hal-hazırda şimali İraq Kürdüstan Muxtariyyatının rəsmi himnidir.

Ömrünün yarısını kürdlərin azadlıq ideyalarına həsr edən və hər cür mübarizə yolunu sınayan Yunus Rauf Dıldari ömrünün bahar çağında 1948-ci ildə 30 yaşında əbədiyyətə qovuşur. Özündən sonra qalan ideyaları və əsərləri, xüsusi ilə haqqında söz açdığımız "Ey rəqib" marşı onun əbədi yaşarlığının əsasını təşkil edir.

# Kürdlər və Kürdüstan

## Kürdlərin coğrafiyası və yerləşməsi

Əvvəli ötən sayımızda

Ermənilərn, kürdlərin və nisbi sayları haqqında mümkün statistik materialların böyük hissəsi Xarici İşlər Nazirliyinin «Ermənistanda reforma» (1915) rəsmi nəşrində yığcam şəkildə qruplaşdırılmışdır.

1) Baş konsul Adamov kürdlər üç yüz min, ermənilər iki yüz min, türklər iki yüz on min. Bayazid sancağında kürdlər başqa millətlərdən beş dəfə çoxdurlar. (Linç) Müəllifi, Məşəddə baş konsul işləmiş T.M. Sukeslə qarışdırmamalı.

